# *MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*
# *ИСТОРИЯ ШКОЛЫ И ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ*
# *HISTORY OF SCHOOL AND PEDAGOGICAL THOUGHT*

**UOT 37.0**

***Lalə Akif qızı Məmmədli***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi*
*https://orcid.org/ 0000-0003-0686-3627*

## ABBASQULU AĞA BAKIXANOVUN PEDAQOJİ GÖRÜŞLƏRİ

***Лала Акиф гызы Мамедли***
*доктор философии по педагогике*
*ведущий специалист Института Образования Азербайджанской Республики*

## ПЕДАГОГИЧЕСКИЕ ВЗГЛЯДЫ АББАСГУЛУ АГА БАКИХАНОВА

***Lala Akif Mammadli***
*doctor of philosophy in pedagogy*
*leading specialist of the Institute of Education of the Republic of Azerbaijan*

## ABBASGULU AGHA BAKIKHANOV'S PEDAGOGICAL VIEWS

**Xülasə.** Abbasqulu ağa Bakıxanov tarixçi olmaqla yanaşı, istedadlı şair, tərcüməçi idi. Əsərləri ilə tanışlıqdan görünür ki, Abbasqulu ağa əxlaqlı olmağı, düzlük və doğruçuluğu, insanpərvərliyi, humanizmi, mərdlik və ədalətli olmağı vacib sayırdı. O, nümunəvi davranış və rəftara, sadəlik və təvazökarlığa, əməksevərliyə, vətənpərvərliyə üstünlük verir, biliklərə, dünyagörüşünə yiyələnməyi məsləhət görürdü.
***Açar sözlər**: pedaqoji görüşlər, "Rəftar qaydaları", "Nəsihətlər", müsbət mənəvi keyfiyyətlər, tərbiyəvi fikirlər*

**Резюме.** Наряду с тем, что Аббасгулу ага Бакиханов был историком, он также прославился как талантливый поэт и переводчик. Из знакомства с его произведениями становится очевидным, что Аббасгулу ага считал важным быть нравственным, честным и правдивым, гуманным, человечным, смелым и справедливым. Он отдавал предпочтение образцовому поведению и манерам, простоте и скромности, трудолюбию, патриотизму, советовал приобретать знания и расширять мировоззрение.
***Ключевые слова**: педагогические взгляды, «Правила поведения», «Наставления», положительные нравственные качества, воспитательные идеи*

**Summary**. In addition to being a historian, Abbasgulu aga Bakikhanov was a talented poet and translator. From acquaintance with his works it is clear that Abbasgulu aga considered it important to be moral, honest and truthful, humane, humane, courageous and fair. He preferred exemplary behavior and manners, simplicity and humility, diligence, patriotism, advised to acquire knowledge and horizons.
***Key words:** pedagogical views, "Rules of conduct", "Moralizings", positive moral qualities, educational ideas*

Abbasqulu ağa Bakıxanov 1794-cu ildə Bakının Əmircan kəndində doğulmuş, 1847-ci ildə Məkkə səfərinə yollanarkən Həbəşistan əyalətində dünyasını dəyişmiş, Səudiyyə Ərəbistanında dəfn edilmişdir. O, "Gülüstani-İrəm"

əsərini yazmaqla, Azərbaycanın ilk tarixçi alimi kimi şöhrət tapmışdır.

Abbasqulu ağa tarixçi olmaqla yanaşı, istedadlı şair, tərcüməçi idi. Qüdsi ləqəbi ilə ana dilimizdə və eyni zamanda ərəb və farsca şeirlər qələmə almışdır. "Gülüstan" (1814) və "Türkmənçay" (1828) sülh müqavilələrinin bağlanması zamanı tərcüməçi kimi fəaliyyət göstərmişdir.

Atası II Mirzə Məhəmməd xan Bakı xanları nəslindən idi. Abbasqulu ağa Bakıxanov maarifçi idi. "Təhzibül-əxlaq", "Nəsihətnamələr" və b. əsərlər yazmaqla pedaqoji fikir tarixində də önəmli yer tutmuşdur.

"Təhzibül-əxlaq" fəlsəfi əsərdir, pedaqogika və psixologiya problemlərini özündə birləşdirir. Bu sənət abidəsi fars dilində qələmə alınmışdır. 12 fəsli əhatə edir. Əsər böyüyən nəslə müsbət mənəvi keyfiyyətləri aşılamaq, gəncləri çirkin əməllərdən çəkindirmək baxımından böyük rol oynayır. Əxlaqı saflaşdırmağı, düzlük və doğruçuluğu, insanpərvərliyi, humanizmi, mərdlik və ədaləti, nümunəvi davranış və rəftarı, sadəlik və təvazökarlığı, əməksevərliyi vətənpərvərliyi, biliklərə, dünyagörüşünə yiyələnməyi vacib sayır.

Abbasqulu ağa Bakıxanov "Rəftar qaydaları haqqında" da yazmışdır. Bu əsərdə insanlar arasındakı dostluq yüksək qiymətləndirilir: "Dost ürəyin darıxdığı vaxt sənə munis və münasibətində şərik olur, maddi cəhətdən çətinlik çəkdiyin zaman sənin əlindən tutur, çətinliyə düşdükdə xilas olmağın üçün çarə axtarır. Nöqsanlarından və eyiblərindən səni xəbərdar edər və cürbəcür nəsihətlərlə səni piş işlərdən saqındırar (1, s. 44), "Hər kəsin "dostam" dediyinə inanma" (1, s. 46).

Böyük ədib dostluğa önəm versə də, bunu da deməyi özünə borc bilir ki, həqiqi "dostluğu bacaranlar azdır". Ona görə də bildirir ki, insan özünü dostluğa layiq (qabil) hesab etmirsə, digər şəxsdən də dostluq iddiasında olmasın gərək.

Abbasqulu ağa Bakıxanov insanlara dostluğun şərtlərini bilməyi və onları yerinə yetirməyi məsləhət bilir və üç növ dostluqdan danışır: "Rəsmi təarüflərdən ötrü olan dostluq. Belə dostla elə o cür də rəftar etməli, özündən razı salmaq üçün təarüflər mərasimini unutmamalıdır.

İkincisi, zahiri mənfəətlər əldə etmək üçün olan dostlardır. Belə adamla da elə o cür rəftar etməli, özündən razı salmaq üçün istədiyini verməli.

Üçüncüsü, bilikli və dünya vəziyyətindən yaxşı xəbərdar olduğu üçün həqiqi dost axtaranların dostluğudur. Bu cür dostlar az tapılar, lakin belə dost ələ düşərsə, onun yolunda mal nədir, bəlkə candan da keçmək olar" (1, s. 45).

Abbasqulu ağa Bakıxanovun "Nəsihətlər"i xüsusi diqqət mərkəzinə gəlir. Burada çoxsaylı və son dərəcə faydalı, tərbiyəedici nəsihətlərlə tanış olmaq mümkündür. Nəsihətlərdə insan həyatının, demək olar ki, bütün sahələrinə aid fikirlər öz əksini tapmışdır: böyüyə, ata-anaya hörmət, onların nüfuzunu gözləmək; yaxşı insanlarla oturub-durmaq; yalan danışmamaq, düz, doğrucul olmaq; təmkinlilik, tolerantlıq; yersiz zarafatdan, pis xasiyyətdən, paxıllıqdan, başqasına qara yaxmaqdan, tamahkarlıqdan, kin-küdurətdən, günah işlətməkdən uzaq durmaq; yaxşılıq və xeyirxahlıq, sadəlik və təvazökarlıq, dostluqda sədaqətli olmaq, mərdlik, vicdanlılıq və s.

Böyük maarifçi ata-anaya sevgini, valideynlərin qayğısına qalmağı aşağıdakı sözlərində diqqətə çatdırırdı: "Öz atan-ananı hamıdan artıq və əziz tut və hər nə buyursalar əməl elə, onları heç vaxt incitmə" (2, s. 6).

Bu sözlər nə üçün diqqətəlayiq sayılır? Bildiyimiz kimi, heç də bütün uşaqlar, oğlan və qızlar öz valideynlərinə qarşı diqqətli və qayğıkeş deyillər. Ata-analarının sözünə qulaq asmayan, onları incidən övladlar var. Hətta nəinki onları eşitmir, sözlərini qulaq ardına vurur, hətta elə hərəkətlərə yol verir, elə əməllərə qurşanırlar ki, valideynlərini rüsvay, günlərini qara edirlər. Həyatda belə xoşagəlməz hallarla az qarşılaşmamışıq.

Abbasqulu ağa öz xalqının xeyrində-şərində iştirakı, Vətənin, millətinin uğurlarına, tərəqqisinə sevinməyi hər kəsin borcu, vəzifəsi hesab edirdi ("Xalqın xeyrinə olmayan bir işi eləmə").

İnsanın kiminlə dostluq etməsinin, kiminlə oturub-durmasının da əhəmiyyəti az deyil. Bakıxanov bu məsələyə də öz münasibətini bildirmişdir: "O adamlarla otur-dur ki, böyüklər onları yaxşı adam hesab edirlər. Əclaf və hərzə danışan adamlardan kənar gəz ki, sən də onlar kimi olmayasan" (2, s. 7).

"Nəsihətlər"də düzlük və doğruçuluq yüksək qiymətləndirilsə də, yalançılıq, yalan danış-

maq pislənir. Oxuyuruq: "Düzlüyü özünə şüar elə, hər kəs əyriliyə qurşansa, həyası və dini əlindən gedər və xalq içində rüsvay olar (1, s 14)...Yalan danışmaqdan çəkin, çünki hər kəs səni yalançı tanısa, doğru sözünə də inanmaz" (2, s. 7).

Qeyd etdiyimiz kimi, Abbasqulu ağa insanları tolerantlığa səsləyirdi. Bu xüsusda o deyirdi: "İnsan hirslənəndə əqli yerindən oynayır. Belə hallarda heç bir iş görmə. Ancaq hirsin soyuyandan sonra işə başla" (2, s. 8).

Böyük mütəfəkkir, eyni zamanda, tənbəlliyi də tənqid edirdi. İşsizliyi dünyadakı ən pis bir şey hesab edirdi. Paxıllığı qabiliyyətsizlik əlaməti kimi nəzərdən keçirən Abbasqulu ağa yazırdı: "Hər kəs öz qüvvəsinə inansa, o özü hamıdan çox istədiyini əldə etməyə çalışar. Hünərsiz adam arta bilmədiyini görüb başqalarının da tənəzzül etməsini arzular ki, özü ilə bərabərləşsin. Paxıl adam heç vaxt rahat yaşaya bilməz. onun öz kədəri və başqalarının fərəhi. Hər ikisi ona dərd olar" (2, s. 10).

Bu mənada Abbasqulu ağanın aşağıdakı fikirləri də diqqəti özünə çəkir: "Bu dünyada hər şey bir iş üçün yaranmışdır. Bir şey başqa şeyin köməyi olmadan yaşaya bilməz. Sən də onlardan birisən, əgər bekar otursan, deməli, daş və palçıq səndən daha yaxşıdır, çünki onlar bir ev tikmək işində kara gələrlər" (2, s. 8).

"Nəsihətlər"də dostu çox olan adam xoşbəxt sayılır. Həm də göstərilir ki, "dünya malını sevən və yüksək mövqe axtarmağa həris olan adam dostluğa yaramaz, çünki o, həmişə öz xeyrini güdüb başqalarına ziyan verməyə çalışar" (2, s. 12).

Bakıxanovun son dərəcə qiymətləndirdiyi keyfiyyətlərdən biri də yaxşılıqdır. Odur ki, "Nəsihətlər"də belə bir fikir öz ifadəsini tapmışdır: "Yaxşılıq etməklə azad kişini özünə qul edərsən. Əziyyət versən, tabeliyində olanlar səndən üz döndərərlər" (2, s. 10).

Abbasqulu ağa "Yaxşılıq etməklə azad kişini özünə qul edərsən" deyimindəki "qul etmək" ifadəsini sözün həqiqi mənasında işlətmir, söhbət kimi isə özünə tabe, qul etməkdən getmir. Bunu belə başa düşmək olar: Atalar sözlərimizdə deyildiyi kimi, "Yaxşılıq qapı açar", yaxşılıq etsən, xeyirxah əməlinə görə sənə minnətdar, duaçı olarlar, kimə isə şadlıq, sevinc gətirərsən, kimin isə ağrı-acısını yüngülləşdirərsən, kimin isə, güzəranını yaxşılaşdırarsan.

"Nəsihətlər"də gözütoxluq təqdir olunur, tamahkarlıq, artıqtamahlıq isə pislənir.

Bakıxanov bir iş görəndə hissə qapılmamağı, ağılla hərəkət etməyi məqsədəuyğun hesab edirdi. Diqqət yetirək: "Nəfsin istəyəni etmə, əqlin istəyəni icra et, çünki yaxşı və pisi ağıl seçir".

Abbasqulu ağa onlar öz nöqsanlarını digərlərindən çox görən, hünərini az bilən şəxsləri ağıllı sayırdı. Çox düzgün qənaətdir.

Diqqətəlayiq nəsihətlərindən biri də bu idi ki, Bakıxanov başqasına qarşı kin saxlamağı məsləhət görmür və bunun səbəbini belə izah edirdi: "...kin saxlama ki, öz rahatlığın əlindən alınar" (2, s. 15).

Yuxarıdakı fikirlərlə tanışlıq nəticəsində belə qənaətə gəlmək olur ki, Abbasqulu ağa Bakıxanovun yaradıcılığı, xüsusən də "Təhzibül-əxlaq", "Nəsihətlər", "Rəftar qaydaları haqqında" və s. əsərləri, şeirləri, təmsilləri güclü tərbiyə vasitəsi, həm də bilik mənbəyidir.

**Problemin aktuallığı**. Abbasqulu ağa Bakıxanov Azərbaycan xalqının çox görkəmli mütəfəkkiri, ilk tarixçisi, dövlət xadimi, yazıçısı, tərcüməçisi, filosofu idi. Onun əsərlərinin tədqiqi, o cümlədən pedaqoji görüşlərini nəzərdən keçirərək bu günümüzdə onlardan faydalanmaq aktuallığı ilə seçilir.

**Problemin yeniliyi**. Abbasqulu ağa Bakıxanov pedaqoji görüşləri diqqət mərkəzinə gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçıları maraqlandıracaqdır.

**Ədəbiyyat:**

1. Abbasqulu ağa Bakıxanov Qüdsi. Seçilmiş əsərləri. – Bakı: Yazıçı, – 1984.
2. Abbasqulu ağa Bakıxanov Qüdsi. Nəsihətlər. – Bakı: Yazıçı, – 1982.

**E-mail:** lale23@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov**,
*ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva**
**Redaksiyaya daxil olub:** 28.03.2022